Fərhad Xəlilov:

# „Gözəllik vurğunuyam..."



**Bəşər övladı yarandığı gündən daim gözəllik axtarışındadır. Təbiət mənzərələrini, ecazkar gözəlliklər ilə insanı valeh edən saysız-hesabsız gülləri, çiçəkləri, quşları, rəngarəng kəpənəkləri... görür, duyur və yüksək qiymətləndiririk. Gözəlliyi duymaq, ondan estetik həzz almağı bacarmaq xoşbəxtlikdir. Onu təsvir edib əbədiləşdirməyi bacarmaq isə ikiqat xoşbəxtlikdir və bu səadət yüksək istedad sahiblərinə nəsib olur.**

Xalqımızın görkəmli sənətkarı, uzun illər Azərbaycan rəssamlıq ənənələrinin davamçısı kimi respublikamızı dünyanın müxtəlif ölkələrində təmsil edən Fərhad Xəlilov məhz belə istedad sahiblərindəndir.

Bu günlərdə Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilovun 60 yaşı tamam olmuşdur.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Prezident sərəncamı ilə o, vətənin yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif edilmişdir. Tanınmış Azərbaycan rəssamı kimi tarixə düşmüş F.Xəlilov 1946-cı il oktyabr ayının 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Onun atası - xalqımızın görkəmli dövlət xadimi Qurban Xəlilov söylərdi ki, hələ xeyli gənc yaşlarında Fərhadın rəngli karandaşlarla çəkdiyi təbiət mənzərələri insanın gözünü oxşar, gözəlliyi ilə hamını valeh edərdi.

1967-ci ildə 21 yaşında olarkən çəkdiyi tablolar ilk dəfə sərgidə nümayiş etdirilmişdir. Tanınmış rəssamlarımız geniş və həssas müşahidə qabiliyyətini, orijinal və mükəmməl rəsm üslubunu görüb uzaqgörənliklə onun gələcəkdə mahir rəssam olacağını xəbər vermişdilər. Rəssamlıq sənətinə olan həvəsini nəzərə alaraq atası Qurban Xəlilov və anası - Azərbaycanın tanınmış mədəniyyət xadimi Gülsüm Xəlilova övladları Fərhadın 1961-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbinə daxil olmasına xeyir-dua vermişlər. Bakıda rəssamlıq təhsilini başa vurduqdan sonra Fərhad Xəlilov 1966-1967-ci illərdə Moskva Ali Bədii Sənaye Məktəbində, 1969-1975-ci illərdə isə Moskva Poliqrafiya İnstitutunda ali rəssamlıq təhsili almışdır. Tələbəlik illərində bir çox sərgilərdə iştirak etmiş, nüfuzlu rəssamların və sənətşünasların rəğbətini qazanmışdır.

F.Xəlilovun müxtəlif mövzularda və janrlarda yaratdığı "Zirədə axşam" (1975), "Dəniz kənarında kənd" (1980), "Xatirə" (1980), "Qayıdış" (1977), "İspan motivi" (1976) və onlarla digər sənət əsərləri diqqətli və həssas tamaşaçıları dərin fəlsəfi mənalı həyat həqiqətləri barədə düşünməyə vadar edir. Bu əsərlərdə hərtərəfli müşahidə qabiliyyətli, həssas qəlbli, realist düşüncəli sənətkarın keçirdiyi hiss və həyəcanları, ibrətamiz fikirlərini duymamaq mümkün deyil. Düşünürsən ki, yaşadığımız həyatda çox vaxt diqqət yetirmədiyimiz nə qədər qəribəliklər və gözəlliklər var. "Bu əsərlər tamaşaçılarda həyat eşqi, nikbinlik və mübarizlik əhval-ruhiyyəsi oyadır" - dünyanın bir çox ölkələrində - Almaniyada (Berlin 2004-cü il), Fransada (Paris-2000-ci il), Rusiyada (Moskva 1973, 1976, 1985, 2001-ci illər) F.Xəlilovun keçirilmiş fərdi sərgilərinə tamaşa etmiş insanların ümumi rəyi belədir.

F.Xəlilov dünyanın 40-dan çox ölkəsində keçirilmiş məşhur rəssamların qrup sərgilərində əsərlərini nümayiş etdirmişdir. ABŞ-da, Yaponiyada, İspaniyada, Polşada və digər ölkələrdə beynəlxalq simpoziumlarda iştirak etmiş, çoxsaylı mükafatlar almış, milli mədəniyyətimizin beynəlxalq aləmdə layiqli təmsilçisi olmuşdur.

Azərbaycan, Rusiya, Ukrayna, Litva, Polşa, Almaniya, ABŞ, Meksika və digər ölkələrin incəsənət muzeylərində və şəxsi kolleksiyalarında F.Xəlilovun rəsm əsərləri saxlanılır və nümayiş etdirilir.

Azərbaycan Rəssamlar İttifaqının 1987-ci ildə keçirilmiş qurultayında F.Xəlilov qurultay iştirakçılarının böyük əksəriyyətinin prinsipial mövqe tutması nəticəsində bu təşkilatın sədri vəzifəsinə seçilmişdir. 2002-ci ildə Respublika Prezidentinin sərəncamı ilə ona Azərbaycanın Xalq Rəssamı fəxri adı verilmişdir. Böyük rus şairi A.S.Puşkinin anadan olmasının 200 illik yubileyi şərəfinə Moskva şəhərində keçirilmiş beynəlxalq serginin ən yüksək mükafatı - Rusiya Yaradıcılıq İttifaqının Qızıl medalı ilə təltif olunmuşdur. 40 illik yaradıcılıq yolu keçmiş zəhmətsevər sənətkarın bu günədək layiq görüldüyü mükafatların siyahısı rəsm əsərlərini yaradarkən çəkdiyi zəhmətlər və yuxusuz gecələr qədər uzun və şərəflidir.

Diqqətli, alicənab, mehriban və xeyirxah insan olduğundan dünyanın müxtəlif ölkələrində xeyli dostları və pərəstişkarları vardır. Məhz buna görə də 1987-ci ildə SSRİ Rəssamlar İttifaqının qurultayında Fərhad Xəlilovu nümayəndələr böyük səs çoxluğu ilə bu nüfuzlu təşkilatın katibi seçmişdilər. 1991-ci ilədək - SSRİ dövlətinin son günlərinədək bu vəzifəni ləyaqətlə icra etmişdir.

1989-cu ildə ABŞ-da F.Xəlilovun rəsm əsərlərinin sərgisi böyük uğurla keçirilmiş, o, ruh yüksəkliyi ilə təntənəli mərasimdə ABŞ-ın Nyu-Cersi ştatının Fəxri Vətəndaşı seçilmişdir.

Rusiya Rəssamlıq Akademiyasının üzvü, Moskva Dövlət Universitetinin professoru, akademik Valeri Turçin Fərhad Xəlilovun fərdi sərgisi ilə bağlı mətbuatda dərc etdirdiyi rəydə rəssamın kamilliyini və peşəkar rəsm üslubunu son dərəcə yüksək qiymətləndirərək bu əsərlərin hər birini bir möcüzə adlandırmışdır, istedadlı fırça ustasının sənətkarlığına heyran olduğunu bildirmişdir.

Almaniyanın nüfuzlu sənətşünaslarından olan doktor Petra Lange rəssamın yaradıcılığına rəğbətini bildirərək yazır ki, Fərhad Xəlilovun əsərləri tamaşaçıları həyəcanlandıran emosionallığı, ruhi genişlik və gözəllik təqdim edən mahir rəssam fantaziyası ilə diqqəti cəlb edir.

Fərhad müəllimi 60 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Vaqif ƏSƏDOV**